


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 50 (24.187)

*17 mart 2023-cü il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Azərbaycan–Türkiyə – sarsılmaz birlik və qardaşlıq örnəyi

### *Azərbaycan Prezidenti İlham Əliyev Türkiyəyə səfər edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə iştirak etmək üçün martın 15-də Türkiyəyə səfərə gəlib.

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi rəsmi şəxslər qarşıladılar.

## Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin martın 15-də Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü olub.

Ankaradakı Prezident Sarayında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlət başçıları birgə foto çəkdirdilər.

Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşünün məhz Türkiyədə keçirilməsi təşəbbüsünün Azərbaycan Prezidentinə aid olduğunu deyən Türkiyə dövlətinin başçısı bu təşəbbüsə görə təşəkkürünü bildirdi.



Türk Dövlətləri Təşkilatının bu formatda keçirilən sammitlərinin əhəmiyyəti qeyd edildi, Zirvə görüşünün Türkiyədə baş vermiş zəlzələnin nəticələrinin aradan qaldırılması mövzusuna həsr olunmasının önəmi vurğulandı.

Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən dəhşətli zəlzələdən dərhal sonra ölkəmizin göstərdiyi qardaşlıq dəstəyini və nümayiş etdirdiyi həmrəyliyi bir daha minnətdarlıqla xatırladı. Türkiyə Prezidenti Azərbaycandan olan xilasedicilərin və həkimlərin zəlzələ bölgəsində səylərini, həmçinin təbii fəlakətin nəticələrini aradan qaldırmaq üçün ölkəmizin humanitar yardımlarını qeyd etdi.

Zəlzələ ilə bağlı bir daha başsağlığını çatdıran Prezident İlham Əliyev təbii fəlakətin Azərbaycan xalqını dərindən sarsıtdığını dedi.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və dostluq münasibətlərinin bir millət, iki dövlət prinsipinə uyğun olaraq bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, siyasi, iqtisadi, ticarət, enerji, müdafiə, müdafiə sənayesi sahələrində əməkdaşlığın daha da genişləndirilməsi və regional məsələlər müzakirə olundu.

Həmçinin söhbət zamanı Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsi üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

## Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib

### Azərbaycan Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşü keçirilib.

Dövlətimizin başçısı İlham Əliyev tədbirdə iştirak edib.

Türkiyə Respublikasının Prezidenti **Rəcəb Tayyib Ərdoğan** Azərbaycan Prezidenti İlham Əliyevi, digər dövlət və hökumət başçılarını qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Sammitin açılışında çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən zəlzələdən sonra "Fəlakət-Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusunda Fövqəladə Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edərək dedi: "Zirvə görüşünün keçirilməsi çağırışı ilə çıxış edən Can Azərbaycanın Prezidenti cənab İlham Əliyevə şəxsən öz adımdan və millətim adından təşəkkürlərimi bildirirəm".

Ankara Sammitində türkdilli ölkələr arasında iqtisadi əlaqələrin inkişafına mühüm töhfə verəcək qərarların qəbul olunacağını vurğulayan Rəcəb Tayyib Ərdoğan bu baxımdan Türk İnvestisiya Fondunun yaradılmasına dair qərarı xüsusi qeyd etdi. Dövlət başçısı bu Fondun üzv ölkələr arasında infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlığın daha da inkişafına mühüm töhfə verəcəyini bildirdi.

Xəzər hövzəsində Türk dünyası ölkələri ilə neft, təbii qaz və elektrik enerjisi sahələrində irimiqyaslı layihələrin birlikdə uğurla həyata keçirildiyini vurğulayan Prezident Rəcəb Tayyib Ərdoğan dedi: "Bakı-Tbilisi-Ceyhan boru kəməri 16 ildir, Azərbaycan, Türkmənistan və Qazaxıstan neftini dünya bazarlarına fasiləsiz çatdırır. Onurğa sütununu TANAP-ın təşkil etdiyi Cənub Qaz Dəhlizi sayəsində Türk dövlətləri Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayırlar".

***

Türk Dövlətləri Təşkilatına sədrlik edən Özbəkistan Respublikasının Prezidenti **Şavkat Mirziyoyev** Türkiyədə baş vermiş zəlzələnin bütün Türk dünyasını dərindən sarsıtdığını vurğuladı. Şavkat Mirziyoyev Türkiyədə Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə görülən ehtiyat tədbirləri, zəlzələdən zərər çəkənlər üçün yüz minlərlə yeni evin tikilməsi, infrastrukturun qurulması ilə bağlı proqram və layihələrin əhəmiyyətini qeyd etdi. Bildirdi ki, zəlzələdən dərhal sonra görülən tədbirlər nəticəsində bir çox insanın həyatı xilas edilib.

Özbəkistan Prezidenti zəlzələ nəticəsində həlak olanların xatirəsini anmaq üçün hər il fevralın 6-sının Türk Dövlətləri Təşkilatı çərçivəsində "Həyatını itirənlərin anım və birlik, bərabərlik və həmrəylik günü" elan olunmasını təklif etdi.

Son illərdə qlobal iqlim dəyişikliyi nəticəsində dağıdıcı hadisələrin sayının və miqyasının artdığını vurğulayan Prezident Şavkat Mirziyoyev belə hadisələrin qarşısının alınması və nəticələrinin aradan qaldırılmasında TDT-nin sistemli əməkdaşlıq platformasının, mülki müdafiə sisteminin yaradılmasının, qabaqcıl dünya təcrübəsinin tətbiqinin, ictimai məlumatlılığın artırılmasının, sıx əməkdaşlıq və dəstək mexanizmlərinin formalaşdırılmasının vacibliyini bildirdi. Dövlət başçısı Təşkilat çərçivəsində Təbii Fəlakətlərin Monitorinqi və Təhlili Mərkəzinin yaradılması təşəbbüsünü irəli sürdü.

***

Türkiyədə baş vermiş dağıdıcı zəlzələnin törətdiyi fəsadlar, qardaş ölkəyə edilən humanitar yardımlar barədə videoçarx nümayiş olundu.

Təbii fəlakət nəticəsində həlak olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

***

Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri **Qurbanqulu Berdiməhəmmədov** çıxışında Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun TDT-nin növbəti toplantısında iştirakında ölkəsinin bu Təşkilata üzv dövlət kimi qəbul ediləcəyinə ümidvar olduğunu bildirdi. Ankara Zirvə görüşünün mövzusunun tarixi əhəmiyyətə malik olduğunu qeyd edən Qurbanqulu Berdiməhəmmədov Türk dövlətlərinin bir-birinə hərtərəfli dost və qardaş dəstəyi verməsinin, belə ağır günlərdə bir olmasının vacibliyini vurğuladı.

***

Dövlətimizin başçısı Fövqəladə Zirvə görüşündə çıxış etdi.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

– Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan.

Hörmətli dövlət və hökumət başçıları, əziz dostlar.

Qardaş Türkiyədə çoxsaylı insanın tələfatına və xəsarət almasına səbəb olan güclü zəlzələnin fəsadları bizi olduqca kədərləndirib. Bu dağıdıcı zəlzələ on minlərlə insanın həyatına son qoyub. Əziz qardaşım, faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına Azərbaycan xalqı adından bir daha dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyirəm.

Azərbaycan hökuməti və xalqı zəlzələ baş verən andan qardaş Türkiyəyə humanitar yardımlar etmək üçün səfərbər olmuşdur. Azərbaycandan 940 nəfər, o cümlədən xilasedicilər, tibb personalı və könüllülər zəlzələ bölgəsinə göndərilib. Türkiyəyə göndərilən xilasedicilərin sayına görə Azərbaycan dünya ölkələri arasında birinci olub. Xilasedicilərimizin və həkimlərimizin səyi nəticəsində dağıntılar altından 53 nəfər sağ çıxarılıb. Həmçinin 780 nəfərin cəsədi dağıntılar altında aşkar edilib. Tibb personalımız, ümumilikdə, 3 mindən artıq şəxsə tibbi xidmət göstərib.

Bu günə qədər 45 milyon ABŞ dollarından artıq vəsait AFAD və digər humanitar qurumların bank hesabına köçürülmüşdür. Bununla yanaşı, qardaş Türkiyəyə 5320 ton humanitar yardım çatdırılmışdır.

Azərbaycan və Türkiyə həm sevincli, həm də kədərli günlərdə daim bir-birinin yanında olmuşdur. Bundan sonra da belə olacaq.

Əminəm ki, əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi sayəsində Türkiyə bu zəlzələnin nəticələrini uğurla aradan qaldıracaqdır.

Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində

*Ardı 2-ci səhifədə*

ilk saatlardan başlayaraq son günə qədər Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verdi.

Eyni zamanda 44 günlük müharibə dövründə bütün Türkiyə xalqı Azərbaycanın yanında idi. Müharibə zamanı və tarixi Zəfərimizdən sonra Türkiyədən minlərlə dəstək və təbrik mesajları gəlmişdir.

2021-ci ilin iyun ayında Qarabağın tacı olan Şuşa şəhərində Türkiyə ilə Azərbaycan arasında Şuşa Bəyannaməsi imzalanmışdır və bizim əlaqələrimiz rəsmən müttəfiqlik səviyyəsinə qaldırılmışdır.

Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər.

Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir.

2022-ci ildə Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilmiş Zirvə görüşündə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın Türk Dünyasının Ali Ordeni ilə təltif edilməsi onun Türk dünyasının gücləndirilməsində böyük xidmətlərini bir daha sübut edir. Əminəm ki, əziz qardaşım bundan sonra da uzun illər ölkələrimiz arasındakı qardaşlıq əsasında qurulmuş əlaqələrin daha da möhkəmləndirilməsinə böyük töhfələr verəcəkdir.

Əziz dostlar, 30 illik işğal dövründə yüzlərlə şəhər və kəndimiz, tarixi və dini abidələr, qəbiristanlıqlar Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılmışdır. Yerləyeksan edilən Ağdam şəhərini xarici ekspertlər "Qafqazın Hirosiması" adlandırırlar. Qarabağ və Şərqi Zəngəzurda 67 məsciddən 65-i ermənilər tərəfindən dağıdılıb, qalan ikisindən isə donuz və inək tövləsi kimi istifadə edilib.

Təbii sərvətlərimiz talanıb, ətraf mühitə ciddi zərər vurulub.

Birinci Qarabağ müharibəsi nəticəsində 4 minə yaxın vətəndaşımız itkin düşmüşdür. Onların, demək olar ki, hamısı işgəncələrə məruz qalaraq qətlə yetirilib. Torpaqlarımız azad edildikdən sonra bir neçə yerdə kütləvi məzarlıq aşkar etmişik. Ermənistan hələ də azərbaycanlı itkinlərin taleyi barədə məlumat verməkdən yayınır.

Ermənistanın işğalına görə Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. İkinci Qarabağ müharibəsindən sonra, yəni 2020-ci ilin noyabr ayından bəri 300-ə yaxın azərbaycanlı mina partlayışı nəticəsində həlak olmuş və ya ağır yaralanmışdır.

2022-ci ildə Praqa və Soçidə Ermənistanın Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımasına baxmayaraq, hələ də öz qoşunlarını tam olaraq Azərbaycan ərazilərindən çıxarmamışdır. Qarabağda qanunsuz erməni dəstələri və kriminal ünsürlər qalmaqdadır.

Ermənistan həm də Zəngəzur dəhlizinin açılması öhdəliyindən yayınır.

Beləliklə, Ermənistan 2020-ci il noyabrın 10-da imzalanmış Bəyanatı kobudcasına pozur və buna görə məsuliyyət daşımalıdır.

2020-ci ildə Qarabağın və Şərqi Zəngəzurun Ermənistan işğalından azad olunmasından sonra Azərbaycan bu ərazilərdə geniş miqyaslı yenidənqurma işləri aparır. Azərbaycan Ermənistan tərəfindən tamamilə dağıdılmış böyük ərazilərə həyatı yenidən qaytarır. Biz sıfırdan 9 yeni şəhər və birinci mərhələdə 300-dən çox kənd və qəsəbə qururuq.



Bu, milli hökumət tərəfindən postmünaqişə dövründə öz maliyyə resursları hesabına həyata keçirilən nadir və misligörünməmiş bir yenidənqurma modelidir.

Keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına dönüşü üçün "Böyük Qayıdış" proqramının icrasına başlamışıq.

Yenidənqurma prosesində Türkiyə şirkətləri podratçı kimi bir çox infrastruktur layihələrində fəal iştirak edirlər. Bu günə qədər Türkiyə şirkətləri ilə imzalanmış kontraktların dəyəri 3 milyard ABŞ dollarından çoxdur. Əziz qardaşım Rəcəb Tayyib Ərdoğan azad edilmiş torpaqlara üç dəfə səfər edib, Şuşa, Füzuli, Zəngilan və Cəbrayıla gedib.

Fürsətdən istifadə edərək, işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən tikilən məktəbə və Qazaxıstan tərəfindən inşa olunan yaradıcılıq mərkəzinə görə Özbəkistan Prezidenti Şavkat Mirziyoyevə və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevə minnətdarlığımı bildirirəm.

Eyni zamanda bildirmək istəyirəm ki, bu yaxınlarda Azərbaycan-Özbəkistan İnvestisiya Fondu və Azərbaycan-Qırğız İnkişaf Fondu yaradılmışdır.

Hörmətli həmkarlar, Türk dünyası türk dövlətlərinin hüdudları ilə məhdudlaşmır. Türk dünyası daha böyük coğrafiyanı əhatə edir. Dünyada yaşayan azərbaycanlıların sayı 50 milyondan çoxdur. Onlardan cəmi 10 milyonu müstəqil Azərbaycan Respublikasında yaşayır.

Tarixi torpağımız olan Qərbi Zəngəzurun 1920-ci ilin noyabr ayında sovet hökumətinin qərarı ilə Azərbaycandan ayrılıb Ermənistana verilməsi Türk dünyasının coğrafi cəhətdən ayrılmasına səbəb olmuşdur. 1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulmuşdur. Ermənistan Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycanda da mədəni irsimizi, məscidləri, tarixi abidələrimizi dağıtmışdır. Azərbaycan ictimaiyyəti dəfələrlə UNESCO-ya indiki Ermənistanda Azərbaycan xalqının mədəni irsinin monitorinq edilməsi məqsədilə bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi xahişi ilə müraciət etmişdir və UNESCO-dan müsbət cavab gözləyir.

Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlarına sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir.

Biz Azərbaycan dövləti olaraq Qarabağda yaşayan erməni sakinlərin fərdi hüquq və təhlükəsizliyini təmin edəcəyimiz kimi, Ermənistan da qarşılıqlı prinsipi əsasında Qərbi azərbaycanlıların hüquq və təhlükəsizliyini təmin etməlidir.

Diqqətə görə təşəkkür edirəm.

***

Qazaxıstan Prezidenti **Kasım-Jomart Tokayev** çıxışında zəlzələ ilə əlaqədar türk xalqının yaşadığı ağrı-acının bütün Türk dövlətləri tərəfindən paylaşıldığını bildirdi, ölkəsinin qardaş Türkiyəyə hər zaman yardım göstərməyə hazır olduğunu qeyd etdi.

Türk dövlətlərinin bu vacib zamanda mükəmməl birlik və həmrəylik nümayiş etdirdiyini vurğulayan Qazaxıstan Prezidenti qardaşlığın, qarşılıqlı dəstəyin davamlı olmasını arzuladı. O, türk xalqının qarşılaşdığı hər çətinlikdən daha güclü formada çıxdığını qeyd etdi, Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə bu dəfə də belə olacağına əminliyini vurğuladı.

***

Qırğızıstan Prezidenti **Sadır Japarov** çıxışında bu Zirvə görüşünün təbii fəlakətdən sonra keçirildiyini diqqətə çatdırdı, qırğız xalqı ilə türk xalqı arasında qədim tarixi əlaqələrin bundan sonra da davam edəcəyini bildirdi. Qırğızıstanın Təşkilatın üzvləri arasında davamlı toplantıların keçirilməsinə böyük önəm verdiyini deyən Sadır Japarov bu mənada üzv dövlətlər arasında siyasi dialoqun əhəmiyyətini vurğuladı. Çoxtərəfli əməkdaşlığın Qırğızıstan üçün çox mühüm olduğunu diqqətə çatdıran Prezident Sadır Japarov ölkələrimiz arasında strateji tərəfdaşlığı dəstəklədiyi və daha da inkişaf etdirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Qırğızıstan Prezidenti bugünkü Zirvə görüşünün mövzusunun fəlakət-fövqəladə halların idarə edilməsi və humanitar yardım kimi məsələlərin Təşkilata üzv dövlətlərdən birgə fəaliyyət, sıx əməkdaşlıq tələb etdiyini diqqətə çatdırdı.

Seçkilərdə Türkiyə Prezidentinə uğurlar arzulayan Sadır Japarov məhz Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə reallaşdırılan islahatların türk xalqını yeni-yeni uğurlara çatdıracağına əminliyini bildirdi.

***

Macarıstanın Baş naziri **Viktor Orban** Türkiyədə baş verən zəlzələnin dəhşətli olduğunu bildirdi, yenidənqurma işlərində bu ölkəyə dəstək verməkdən şərəf duyacaqlarını dedi. Türkiyənin Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə sürətli inkişafının şahidi olduğunu vurğulayan Baş nazir qarşıdakı müddətdə bunun davam edəcəyinə inamını ifadə etdi. Bu gün dünyanın üzləşdiyi münaqişələrə toxunan Baş nazir Türk Dövlətləri Təşkilatının üzv ölkələrinə güclü sülh səylərinə görə təşəkkürünü bildirdi. Qlobal iqtisadiyyatda cərəyan edən hadisələr nəticəsində müxtəlif blokların yaranmasının Macarıstanın maraqlarına uyğun olmadığını söyləyən Viktor Orban bütün ölkələr arasında əlaqələrin qurulmasının tərəfdarı olduqlarını vurğulayaraq dedi: "Türk dünyası, Türk dövlətlərinin bu mənada Qafqaz və Mərkəzi Asiyadakı ölkələr olaraq açar rol oynayacaqlarını düşünürəm. Münasibətlərimizi qarşılıqlı hörmət çərçivəsində davam etdirərək bütün dünyaya örnək ola bilərik. Bu məqsədlə Macarıstan olaraq enerji, ticarət, eyni zamanda daşıma sahələrində birgə səyləri gücləndirməyə töhfə vermək niyyətindəyik".

***

Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar tədbirə dəvətə və bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Türkiyə və Azərbaycan prezidentlərinə minnətdarlığını bildirərək dedi: "Məni buraya dəvət etdiyi üçün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana çox təşəkkür edirəm. Azərbaycan Prezidenti İlham Əliyevə bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə dərin minnətdarlığımı bildirirəm".

Prezident Ersin Tatar güclü və böyük Türkiyə dövlətinin zəlzələnin fəsadlarını ən qısa vaxtda aradan qaldıracağına əminliyini bildirərək, belə hadisələr zamanı dost, qardaş ölkələrimiz arasında həmrəyliyin və birliyin böyük əhəmiyyət daşıdığını vurğuladı.

***

Sonra Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının sədri və qardaş ölkənin hakim Ədalət və İnkişaf Partiyasının sədr müavini **Binəli Yıldırım**, Türk Dövlətləri Təşkilatının Baş katibi **Kubanıçbek Ömürəliyev** çıxış etdilər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident İlham Əliyevə bir daha minnətdarlıq edərək dedi: "Qardaşlığın təzahürü olan bu Zirvə görüşünün keçirilməsi təşəbbüsünə görə İlham qardaşıma və onun şəxsində Can Azərbaycana bir daha təşəkkürümü bildirirəm".

Prezident Ərdoğan Türk Dövlətləri Təşkilatının hazırkı sədri Özbəkistana da minnətdarlığını bildirdi.

Zirvə görüşünə yekun vuran Özbəkistan Prezidenti Şavkat Mirziyoyev sammitdə qəbul olunan qərarların ölkələrimiz arasında əməkdaşlığın inkişafına yeni töhfələr verəcəyinə əminliyini bildirdi.

Sonda Ankara Bəyannaməsi və mülki müdafiə mexanizminin qurulmasına dair Protokol imzalandı.

***

Qeyd edək ki, bu tədbirin Şuşada keçirilməsi nəzərdə tutulmuşdu. Lakin Türkiyədə baş vermiş dəhşətli zəlzələ ilə əlaqədar Prezident İlham Əliyev qardaş ölkəyə dəstək məqsədilə Zirvə görüşünün Ankarada keçirilməsi təklifi ilə çıxış edib. Digər iştirakçı ölkələrin rəhbərləri ilə razılaşdırıldıqdan sonra bununla bağlı müvafiq qərar qəbul olunub. Bu, bir daha Azərbaycan-Türkiyə qardaşlığının, Türk dünyasında qarşılıqlı dəstəyin və hörmətin bariz nümunəsidir.

"Fəlakət - Fövqəladə halların idarə edilməsi və humanitar yardım" mövzusuna həsr olunan Zirvə görüşü Türkiyənin cənub və cənub-şərq bölgələrində baş verən zəlzələ nəticəsində yaranan fövqəladə vəziyyətlə bağlı məsələlərin ən yüksək səviyyədə müzakirə edildiyi platformadır. Liderlər fəlakətlərlə mübarizədə Türk Dövlətləri Təşkilatı daxilində çoxtərəfli sıx əməkdaşlıq və koordinasiya mexanizmlərinin yaradılmasına diqqət çəkib, regionda mövcud çağırışlarla bağlı məsləhətləşmələr aparıblar.

## Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının birgə naharı olub

Martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının birgə naharı olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev naharda iştirak edib.

## Prezident İlham Əliyevin Türkiyəyə səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri martın 16-da başa çatıb.

Ankaranın Esenboğa hava limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi rəsmi şəxslər yola saldılar.

**AZƏRTAC**

## Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə yeni nazir təyin edilib

Martın 16-da Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilov kollektivə təqdim olunub.

Ceyhun Cəlilovu kollektivə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov təqdim ediblər.

Təqdimat zamanı Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin fəaliyyəti geniş təhlil olunub, mövcud problemlər və qarşıda duran vəzifələr diqqətə çatdırılıb.

Qeyd edək ki, martın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı ilə Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilib. O, Naxçıvana təyinatdan öncə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin İdarə Heyəti sədrinin müavini vəzifəsində çalışıb.

**"Şərq qapısı"**

## Naxçıvanda 3 şəhid ailəsinə və 5 qaziyə mənzil, 12 qaziyə isə avtomobil təqdim olunub



Martın 16-da – Novruz bayramı ərəfəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev şəhid ailəsi və qazilərlə görüşüb, 3 şəhid ailəsinə, 5 qaziyə yeni mənzil, 12 qaziyə isə avtomobillər təqdim olunub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli tədbir iştirakçılarını mənzil və avtomobillərlə təmin olunmaları, eyni zamanda qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edərək deyib ki, hər zaman şəhid ailələri, qazilər və müharibə veteranları dövlətin qayğısı ilə əhatə olunub və bundan sonra da onlar bu qayğıdan kənarda qalmayacaqlar. Bu gün – bayram ərəfəsində ehtiyacı olanlara mənzil və avtomobillər təqdim olunur. Silsilə tədbirlər bundan sonra da davam etdiriləcək. Qeyd olunub ki, görülən işlər şəhid ailələrinə, qazilərə, müharibə veteranlarına dövlət tərəfindən göstərilən qayğının əyani təzahürüdür.

Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev çıxış edərək deyib ki, Azərbaycan tarixində ən şanlı səhifələrdən birini Azərbaycan Ordusu 44 günlük zəfər savaşında yazdı. Vətən müharibəsini Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu və bu ordunun, Ali Baş Komandanın ətrafında yumruq kimi birləşmiş Azərbaycan xalqı qazandı. Azərbaycan Ordusu dünyada silah və texnika baxımından qabaqcıl ordulardandır. Lakin silah və texnika ilə qəhrəman əsgər və zabitlər olmadan heç bir nəticə əldə edilə bilməz. Şəhidlərimiz öz qanları və canları ilə Azərbaycanın suverenliyini qorudu, işğalda olan ərazilərimizi geri qaytardı. Sahil Babayev ölkə başçısının tapşırığı ilə ötən dövrdə ölkə üzrə müvafiq kateqoriyadan olan insanlara göstərilən xidmətlərdən ətraflı danışıb. Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında da müvafiq kateqoriyadan olan vətəndaşlar hər zaman diqqət mərkəzindədir və burada da böyük paketlər icra olunacaq.





Sonra Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mənzillərin orderlərini və avtomobillərin açarlarını təqdim ediblər.

Mənzil və avtomobillə təmin olunan qazilərdən Uğur Əliyev, Abbasəli Tarverdiyev və İlqar Caməmmədov şəhid ailələri və qazilərə göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıqlarını bildiriblər.

Şəhid ailələrinə və qazilərə verilən 2 və 3 otaqlı mənzillər Kəngərli rayonunun Qıvraq, Sədərək rayonunun Heydərabad qəsəbələrində, Culfa, Şahbuz və Babək şəhərlərindəki yaşayış binalarında yerləşir.

**“Şərq qapısı”**

## Sosial müdafiə sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq sosial müdafiə sahəsində səmərəli idarəetmənin həyata keçirilməsi məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) yanında Dövlət Sosial Təminat Xidmətinin əsasında Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi publik hüquqi şəxsi yaradılsın.

2. Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi, habelə Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi və Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxslərinin təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

2.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinə:

2.1.1. idarəetmə orqanlarının yaradılması;

2.1.2. yenidən təşkili və ləğv edilməsi;

2.2. Nazirliyə:

2.2.1. bu Fərmanın 2.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

3. Müəyyən edilsin ki:

3.1. Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi, Dövlət Məşğulluq Agentliyi və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxslərin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün onlarda sədr də daxil olmaqla 3 (üç) üzvdən ibarət İdarə Heyəti yaradılır;

3.2. İdarə Heyətinin sədrini və digər üzvlərini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəyə təyin və vəzifədən azad edir;

3.3. Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi Nazirlik yanında Dövlət Sosial Təminat Xidmətinin hüquqi varisidir, onun sosial xidmət göstərilməsi ilə bağlı hüquq və öhdəlikləri, habelə tabeliyindəki sosial xidmət müəssisələri bütün əmlakı ilə birlikdə bu Fərmanın 1-ci hissəsində nəzərdə tutulan Sosial Xidmətlər Agentliyinə, digər hüquq və öhdəlikləri isə Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsinə keçir;

3.4. Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin nizamnamə fondu bu Fərmanın 3.3-cü bəndinə uyğun olaraq ona keçən əmlak hesabına formalaşır.

4. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

4.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Fərmana uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

4.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

5. Nazirlik:

5.1. Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxslərinin nizamnamələrini, strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və onların əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə razılaşdırmaqla iki ay müddətində təsdiq etsin;

5.2. Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxslərinin nizamnamələrinin təsdiq edildiyi tarixdən 3 (üç) gün müddətində həmin hüquqi şəxslərin dövlət qeydiyyatına alınması ilə bağlı “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müvafiq tədbirlər görsün;

5.3. Nazirlik yanında Dövlət Sosial Təminat Xidmətinin tabeliyindəki dövlət sosial xidmət müəssisələrinin Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinin tabeliyində publik hüquqi şəxslərin yaradılması üçün iki ay müddətində zəruri tədbirlər görülməsini təmin etsin;

5.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

6. Nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyi, Dövlət Məşğulluq Agentliyi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi, Dövlət Sosial Müdafiə Fondu dövlət qeydiyyatına alındığı günədək Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu, Nazirlik yanında Dövlət Sosial Təminat Xidməti, Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyi, Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi öz fəaliyyətlərini davam etdirsinlər.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 16 mart 2023-cü il*

## C.R.Cəlilovun Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Ceyhun Ramiz oğlu Cəlilov Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 15 mart 2023-cü il*

## N.F.Babayevin Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nicat Fəxrəddin oğlu Babayev Naxçıvan Muxtar Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 15 mart 2023-cü il*

## N.F.Babayevin Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Nicat Fəxrəddin oğlu Babayev Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 15 mart 2023-cü il*

## C.R.Canməmmədovun Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Canməmməd Ramiz oğlu Canməmmədov Naxçıvan Muxtar Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 15 mart 2023-cü il*

## Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar tədbir keçirilib. Nazirliyin aparatının və Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşlarının iştirak etdiyi tədbirdə Ulu Öndərin həyat yolu və dövlətçilik tarixində gördüyü işlərə nəzər salınıb, həyat və fəaliyyətindən bəhs edən filmə baxılıb.

Çıxışlarda xalqımızın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi rəhbər Heydər Əliyevin mənalı və şərəfli həyat yolundan, ölkə müstəqilliyi, ərazi bütövlüyü və dövlətçiliyə qarşı yönələn qəsdlərin qarşısının alınmasında rolundan bəhs olunub. Vurğulanıb ki, Ümummilli Liderin məhkəmə-hüquq sisteminin inkişafında müstəsna xidmətləri vardır, həmin dövrdə hüquqi dövlət quruculuğu yolunda aparılmış islahatlar əhəmiyyətə malikdir.



Qeyd olunub ki, quruculuq və xilaskarlıq missiyasının öhdəsindən layiqincə gəlməklə dünya miqyaslı dövlət xadimi səviyyəsinə yüksəlmiş dahi şəxsiyyət Heydər Əliyevin milli dövlətçiliyimizin möhkəmləndirilməsində misilsiz xidmətləri, müdrikliyi, uzaqgörənliyi, fədakar əməyi və titanik fəaliyyətin nəticəsində ölkəmizin bugünkü inkişaf göstəricilərinə nail olunub. Çıxışlarda yenidən hakimiyyətə qayıdışından sonra Ümummilli Liderin rəhbərliyi ilə ölkə həyatının bütün sahələrində başlanmış hərtərəfli və kompleks islahatlarla məhkəmə-hüquq sisteminin beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik ənənələrinə uyğun təşəkkül tapması bildirilib, Ulu Öndərin diqqət və qayğısı sayəsində Azərbaycan ədliyyəsinin formalaşdırıldığı xüsusi vurğulanıb.

Sonra tədbir iştirakçıları dahi şəxsiyyət Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmə baxıb.

* * *



“Naxçıvan” Universitetinin konfrans zalında Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı, ali təhsil müəssisələrinin müəllim və tələbə heyətinin iştirakı ilə “Heydər Əliyev İli”nə həsr olunmuş “Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyası və Naxçıvan” mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvanşünaslıq Mərkəzinin elmi katibi Nihad Tarverdiyevin, AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Toğrul Xəlilovun, “Naxçıvan” Universitetinin Ümumi tarix və beynəlxalq münasibətlər kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru Mehman Şabanovun, Naxçıvan Müəllimlər İnstitutunun Pedaqogika və psixologiya kafedrasının baş müəllimi, pedaqogika üzrə fəlsəfə doktoru Ruhəngiz Əliyevanın çıxışları dinlənilib.

Çıxışlarda qeyd olunub ki, Naxçıvan torpağı XX əsrdə Azərbaycana Heydər Əliyev kimi görkəmli siyasətçi, müdrik dövlət xadimi bəxş etmişdir. Adı tarixin səhifələrinə qızıl hərflərlə yazılmış Ulu Öndərin Azərbaycan tarixində əvəzedilməz xidmətləri olmuşdur. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri də təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi yaddaşlarda qalıb. Ulu Öndər Heydər Əliyev 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin siyasi bürosuna üzv seçilməsi, həmçinin SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilməsi Azərbaycan oğlunun onun mənsub olduğu xalqın tarixində əhəmiyyətli bir səhifə idi. Çünki dahi rəhbər Heydər Əliyev hakimiyyətin verdiyi bütün imkanlardan Azərbaycanın inkişafı naminə istifadə edirdi.

Çıxışlarda Ulu Öndərin həyat və fəaliyyətinin 1990-1993-cü illəri əhatə edən Naxçıvan dövrü haqqında da ətraflı məlumat verilib. Diqqətə çatdırılıb ki, dahi şəxsiyyət xalqın çağırışlarına cavab verərək onun nicatı uğrunda siyasi mübarizəyə başladı və 1993-cü il iyunun 15-də ikinci dəfə siyasi hakimiyyətə qayıtmaqla respublikanı xaosdan, anarxiyadan, parçalanmaqdan, yox olmaqdan xilas etdi. Bu hadisə Azərbaycan dövlətinin tarixinə “Milli Qurtuluş Günü” kimi əbədi həkk edildi.

Qeyd olunmuşdur ki, ölkəmizdə müstəqil dövlət təsisatlarının yaradılması, beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması dahi şəxsiyyət Heydər Əliyevin əvəzsiz xidmətləridir.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası bu gün dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafı təmin edilmiş, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunmuşdur. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaqdır.

* * *

*Babək Rayon Mədəniyyət Sarayında “Ulu Öndər Heydər Əliyev və Azərbaycançılıq məfkurəsi” mövzusunda konfrans keçirilib. Əvvəlcə xalqımızın Ümummilli Liderinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*



Konfransda çıxış edən Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov deyib ki, bu il xalqımızın böyük oğlu, dahi şəxsiyyət Heydər Əliyevin anadan olmasının 100 illiyi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə, o cümlədən muxtar respublikamızda yüksək səviyyədə qeyd olunur.

Diqqətə çatdırılıb ki, bu gün Azərbaycançılıq ideologiyası, dünya azərbaycanlılarının həmrəyliyinin miqyasının genişləndirilməsi siyasəti müasir mərhələdə Ulu Öndərin layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Möhtərəm Prezidentimiz Azərbaycanın milli mədəni irsinin qorunmasına, Azərbaycançılıq ideologiyasının möhkəmləndirilməsinə daim xüsusi diqqət göstərir. Milli birlik və Azərbaycançılıq ideologiyası həm də müasir dövrdə tarixi Qələbəmizi təmin edən faktorlardan biri oldu. Zaman sübut etdi ki, Ümummilli Liderin müəyyənləşdirdiyi bu məfkurənin alternativi yoxdur. Bir zamanlar pərakəndəlik, xaos, özbaşınalıq, hakimiyyət uğrunda gedən dava ucbatından ermənilər tərəfindən işğal olunan torpaqlarımız məhz milli məfkurədən doğan birlik nəticəsində düşmən tapdağından azad edildi. 44 günlük müharibə dövründə Azərbaycan xalqının bir an belə dayanmadan vahid bir gücə, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında birləşərək “Dəmir yumruğ”a çevrildiyinin şahidi olduq. Məhz Azərbaycançılıq ideologiyası 30 ildən bəri davam edən münaqişənin bitməsinə və Azərbaycanın Qələbə çalmasına yol açdı.

Vurğulanıb ki, Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, güclü konseptual ideologiyaya malik Azərbaycançılıq məfkurəsi bundan sonra da xalqımıza və dövlətimizə yeni qələbələr, zəfərlər gətirəcək.

Konfransda Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Ülviyyə Həmzəyevanın, AMEA-nın müxbir üzvü, professor, tarix elmləri doktoru Fəxrəddin Səfərlinin, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Əliyevin mövzu ilə bağlı çıxışları olub.

Sonda Ulu Öndərə həsr olunmuş filmə baxılıb.

**Xəbərlər şöbəsi**

## *“IT Hub Azerbaijan”* layihəsi tələbələrə təqdim olunub

Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən tədbirdə icra hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva çıxış edib.



Qeyd edilib ki, gənclərin mükəmməl təhsil alması, sağlam inkişafı, elmi-texniki yeniliklərə yiyələnməsi, idmanla məşğul olması, dövlət qulluğu işlərində onların potensialından səmərəli istifadə edilməsi və digər istiqamətlərdə aparılan işlər dövlət gənclər siyasətinin əsasını təşkil edir. Ölkəmizdə informasiya cəmiyyətinə keçid üçün müvafiq mühit yaradılıb və informasiya texnologiyalarının aparıcı sahə kimi inkişafı istiqamətində mühüm addımlar atılıb. Azərbaycanda informasiya cəmiyyətinin qurulması istiqamətində görülən işlərin təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulub. Dövlət başçısının uğurla davam etdirdiyi siyasət nəticəsində bu gün müasir informasiya texnologiyalarının cəmiyyətə inteqrasiyasının səviyyəsi iqtisadi və mədəni inkişafın mühüm amilinə çevrilib.

Vurğulanıb ki, “IT Hub Azerbaijan” layihəsi gənclərin informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının artırılmasında mühüm rol oynayacaq, onlar üçün yeni iş yerləri və karyera imkanlarının yaradılmasına geniş imkanlar açacaq.

İcra Hakimiyyətinin əməkdaşı Həsən Vəliyev layihə haqqında tələbələrə ətraflı məlumat verib. Bildirib ki, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM), Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) və “StrategEast” müəssisəsinin birgə əməkdaşlığı ilə “IT Hub Azerbaijan” layihəsinə start verilib. Layihə çərçivəsində ilkin mərhələdə Gəncə, Sumqayıt, Lənkəran, Mingəçevir, Şirvan şəhərləri və Naxçıvan Muxtar Respublikası olmaqla Azərbaycanın regionlarında 19-30 yaş kateqoriyasına aid gənclərin ödənişsiz şəkildə İT təlimlərində iştirak etməsi və proqramı uğurla bitirən gənclərin sırasından seçilmiş namizədlərin ölkəmizdə qalmaqla xarici şirkətlərdə işlə təmin olunması nəzərdə tutulur. Təlimlər beynəlxalq ekspertlər tərəfindən kompüter elmləri, proqramlaşdırma, biznes təhlili və digər mövzularda 11 ay müddətində onlayn şəkildə aparılacaq. İştirak etmək istəyənlər Naxçıvan Şəhər İcra Hakimiyyətinin internet hesablarında yerləşdirilən link vasitəsilə 21 mart 2023-cü il tarixədək qeydiyyatdan keçə bilərlər.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*Ölkə başçısı tərəfindən təhsil sistemində yeni islahatların həyata keçirilməsi, bu istiqamətdə Dövlət proqramları və sərəncamların imzalanması, məktəblərdə yaradılan müasir tədris şəraiti təhsilin səviyyəsini yüksəldib.*

## Naxçıvanda məzunların 96 faizi ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə sənəd verib



Təhsilə göstərilən dövlət qayğısı muxtar respublikada da öz nəticələrini verir, məktəblilərin təhsilə, elmə olan marağı ildən-ilə artır. Mart ayının 1-dən, 15-dək ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunda da muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri təhsillərini davam etdirmək üçün fəallıq nümayiş etdirib. Belə ki, Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla ümumtəhsil məktəblərini bitirən 3166 şagirddən, 3043-ü sənədvermədə iştirak edib ki, onlardan 2877-si ali, 166-sı isə orta ixtisas təhsili müəssisələrini seçib. Ümumilikdə, sənəd qəbulunda məktəblilərin 96 faizi iştirak edib.

Heydər Əliyev adına Hərbi Liseyi, Naxçıvan Qızlar və Şərur Şəhər Fizika-Riyaziyyat Təməyüllü liseylərini bitirən şagirdlərin 100 faizi ali məktəblərə sənədvermədə iştirak edib.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən sənəd qəbulunda şagirdlərə köməklik məqsədilə bir sıra təşkilati işlər də görülüb. Rayon (şəhər) təhsil şöbələrində bu məqsədlə məsul şəxslər müəyyənləşdirilib.

Məlumat üçün bildirək ki, ötən tədris ilində ümumtəhsil məktəblərini Heydər Əliyev adına Hərbi Lisey də daxil olmaqla 2990 məzun bitirmiş, onlardan 2848-i, yaxud 95 faizi ali və orta ixtisas təhsili müəssisələrinə sənəd vermiş, onlardan 2159-u, yaxud 76 faizi tələbə adını qazanmışdır. Yüksək nəticə göstərən məzunlarda keyfiyyət göstəriciləri yaxşılaşmış, 600-700 arası bal toplayan məzunların sayı ötən ilə nisbətdə 36 faiz artmışdır. 254 nəfər isə 500-700 arasında bal toplamışdır. Yüksək nəticə göstərən 100 məktəbdən 71-i ucqar kənd məktəbləri olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Bayram gəlir elimizə

“Dağlar qoynunda yallı”, rəssamı Əli Səfərli



*Təbiət oyanır, ağaclar çiçək açır, çəmənlər yaşıllaşır, torpaq şumlanır, insanların zəhmət dolu günləri başlayır. Bir sözlə, elimizə-obamıza bahar bayramı olan Novruz gəlir. Novruz təbiətin oyanışını, gecə ilə gündüzün bərabərləşməsini, əkinçilik həyatının başlanğıcını özündə təcəssüm etdirir. İnsanlar qışın ətalətini üzərindən atır, ev-eşik təmizlənir, həyət-baca bellənir, hər şey yenilənir, təzələnir. Deyərlər ki, tut sovuşanacan, gilas ağaranacan Novruzdur…*

Bu bayram milli dəyərlərimizin, adət-ənənələrimizin yaşadıldığı, müxtəlif mərasimlərin yerinə yetirildiyi bolluq, bərəkət və firavanlıq rəmzidir. Yeni gün mənasını ifadə edən Novruz dünyəvi bayram kimi UNESCO-nun Qeyri-Maddi Mədəni İrs siyahısına salınıb. Dövlət səviyyəsində qeyd etdiyimiz Novruz milli müstəqilliyimizin bizə bəxş etdiyi ən gözəl, ən dəyərli bayramdır. Uşaqdan-böyüyə hər kəsin sonsuz sevinclə qarşıladığı bu bayram uzaqlarda yaşayan və qəlbləri Azərbaycanla birgə döyünən soydaşlarımız tərəfindən də qeyd edilir. Bu gün Novruz bayramı 30 ildən sonra işğaldan azad edilən torpaqlarımızda şən əhvali-ruhiyyə ilə keçirilir, tonqallar qalanır, səməni cücərdilir, yurd yerlərimizdə milli dəyərlərimiz yaşadılır.




Minillik yaddaşımızdan süzülüb gələn Novruz bayramının üzərindəki qadağaların ortadan götürülməsi məhz Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə mümkün oldu. Bu bayram, sadəcə, mərasim kimi deyil, məhz milli-mənəvi dəyərlərin əhəmiyyətli bir hissəsi kimi yenidən öz mahiyyətinə qovuşdu, insanlar kütləvi şənliklərlə bayramı qeyd etməyə başladılar. Ulu Öndər Heydər Əliyev 21 mart 2000-ci il tarixdə Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən demişdir: ***“Novruz bayramının bizə bəxş etdiyi ən gözəl nemət ondan ibarətdir ki, qədim zamanlardan bu bayramda insanlar kin-küdurəti unudur, küsülülər barışır, ziddiyyətlər aradan götürülür. Demək, bu, dostluq, həmrəylik, yüksək mənəviyyat bayramıdır”.***

Qədim adət və ənənələrlə zəngin Novruzda süfrələr müxtəlif naz-nemətlərlə bəzənir, qohumları, böyükləri bir-bir ziyarət edib, onların xeyir-duasını alır, səmimiyyət, xoş əhvali-ruhiyyə, üzlərdə gülüş yaranır. Bayrama hazırlıq işləri bir həftə-on gün qabaqcadan həyata keçirilir. İlaxır çərşənbə axşamı süfrəyə müxtəlif cür yeməklər, salatlar, şirniyyatlar, çərəzlər düzülür. Bu çərşənbə Ordubadda “yeddiləvin” kimi maraqla qeyd edilir. Belə ki həmin gün süfrəyə yeddi adda nemət düzülür, evlərdə buğda qovrulur, plov bişirilir, yumurta boyanır, gözəl süfrə açılır. Həmin axşam Novruzun əsas rəmzi olan tonqal üzərindən atlayıb deyirlər: “Ağırlığım, uğurluğum odlara, tonqaldan atlanmayan yadlara”. Sonra hamı süfrə arxasına keçir, yeyib-içir, deyib-gülür, şənlənir. Belə bir inancı da xatırlatmaq yerinə düşər ki, bayram necə əhvali-ruhiyyə ilə qarşılansa eyni əhvali-ruhiyyə ilin sonuna qədər davam edər.

Bayram hazırlıqlarından biri də təndirlərdə bayram çöçəsinin bişirilməsidir. Analarımız, nənələrimiz, qohum-qonşular bir yerə yığışır, köməkləşib bayram üçün cəvizli və yağlı çöçə təndirə yapırlar. Bişirilən çöçədən uzaqda yaşayan övladlarına pay göndərir, bayram süfrəsinə də qoyurlar.

“Bayrama hazırlıq”, rəssamı Elmira Şahtahtinskaya



Bayram axşamı – martın 20-də təmtəraqlı Novruz süfrəsinə – paxlava, şəkərbura, badambura, tort, qoğal, halva növləri, çərəzlər və sair düzülür. Qovurğa süfrənin əsas çərəzlərindəndir. Əsasən, buğdadan, həmçinin qarğıdalı və noxuddan da hazırlanır. Sacda qovrulmuş buğdaya küncüt, cəviz, fındıq, badam ləpəsi (qovrulmuş halda) qatılır. Buğda, arpa, mərcidən hazırlanan səmənilər nəinki süfrəyə, bütün evə gözəllik, xoşbəxtlik bəxş edir. Bayramın əsas atributlarından biri olan yumurta Novruzun dörd çərşənbəsinin əlamətlərini özündə daşıyır. Belə ki, yumurta qabığının dairəviliyi torpaq mənasında olan dünyanı, pərdəsi bir növ havanı, ağı suyu, sarısı isə odu simvollaşdırır. Qırmızı və müxtəlif rənglərdə boyanan yumurtalar süfrəyə yaraşıq verir. Novruz bayramında keçirilən oyun-əyləncələrdən ən maraqlısı yumurta döyüşdürməkdir. Bu zaman həm bişmiş, həm də çiy yumurtadan istifadə olunur. Yumurta döyüşdürənlər əvvəlcə onların bərk-boşluğunu dişə vurmaqla müəyyənləşdirir, döyüşmədə yumurtası sındırılmış adam öz təzə yumurtasını qazanana verir. Novruz bayramında süfrəyə həm də gülab qoyulur. Keçmişdə naxçıvanlılar qızılgüldən gülab (gül suyu) çəkiblər. Bir sıra şirniyyatlar, eləcə də bayram paxlavasının şərbətində gülabdan istifadə ediblər. Bir sıra bölgələrimizdə, eləcə də Naxçıvanda bayramlaşma zamanı bir-birinin əlinə gülab suyu səpmək adəti bu gün də davam etdirilir.

Qədim zamanlardan insanlar təbiətin oyanmasının və bitkilərin canlanmasının rəmzi olaraq qablarda buğda göyərdib, bayram süfrəsi üçün səməni bişirərdilər. Bu ənənə qədim xalqların şifahi poeziyasında da bolluq, səadət arzusunu ifadə edib. Yunan tarixçisi Plutarx (bizim eranın, təxminən, 46-127-ci illər) göstərib ki, qədim Azərbaycanda (Midiyada) buğda çox müqəddəs hesab edilib, yazın əvvəllərində midiyalılar buğdanı cücərdiblər. Maraqlıdır ki, bu adət bu günə səməni göyərtmək şəklində gəlib çıxıb. Səməni həm də əkinin, məhsul bolluğunun rəmzi kimi xüsusi əhəmiyyət daşıyır. Səməni göyərtməklə sanki ümidini, arzusunu, ruzisini göyərdirdi əkinçi nənə-babalarımız:

*Səməni, ay səməni,*
*İldə göyərdərəm səni.*
*Sən gələndə yaz olur,*
*Yaz olur, avaz olur...*

Onlar “Səməni, saxla məni, ildə göyərdərəm səni”, – deyə vəd edərək səmənini hər il göyərdəcəklərinə, bolluq yaradacaqlarına da söz verirdilər. Bayram bitib səməni saralınca o, təmiz, axar suya axıdılmalıdır. Belə bir inanc var ki, onu suya atarkən niyyət edən insan növbəti ilədək arzusuna çatır. Bu ənənə uzun illərdən bəri bir çox bölgələrimizdə, xüsusilə də Ordubadda bu gün də qorunub saxlanılır.

İnanclar, əsasən, Novruz fallarında da qorunur, yaşadılır. Qulaq falı, qapıpusma hər bir bölgəmizdə, eləcə də Naxçıvanda geniş yayılıb. Bu fallar, xüsusilə ilaxır çərşənbə axşamı icra edilir. Hava qaralandan sonra ürəkdə niyyət tutub gizlincə qohum-qonşunun qapısına gedir, qapı dalında durub, ayağın altına açar atıb, içəriyə qulaq asırlar. Eşidilən ilk söz niyyətin yerinə yetib-yetməyəcəyinə işarə edir. Əgər bu söz xoş, yaxşı bir istəyə bağlıdırsa, niyyətin baş tutacağına, narazılıq, nigarançılıq bildirən söz eşidilərsə, onda istəyə çatmağın çətin olacağına inanılır. İlaxır çərşənbə axşamı yerinə yetirilən mərasimlərdən biri də üzüksalmadır. Bu vaxt subay qızlar üzüklərini bir qabın içərisinə salır, növbə ilə bayatı deyilir. Bayatı oxunub başa çatandan sonra tasın içindəki üzüklərdən biri götürülür. Kimin üzüyü qabdan çıxarılsa, onun diləyi həmin bayatıdakı mətləbə yaxın bir axarda yozulur. Novruz axşamı arx kənarına bir yumurta, iki rəngli qələm, yaxud karandaş qoyulur və hər hansı bir iş üçün niyyət edilir. Səhər gedib arxın kənarına qoyulan yumurtaya baxılır. Əgər yumurtanın tən ortasından qırmızı xətt çəkilərsə, bu, niyyətlərinin baş tutacağına işarədir, qara xətt çəkilərsə isə əksi düşünülür. Ümumiyyətlə, Novruz falları ilə bağlı inanclar say və məzmunca zəngindir. Məsələn, kuzə, açar, qıfıl, alma, iynə, qovurğa, ulduz və digərləri maraqlı olmaqla yanaşı, bir çoxu əski təbiət kultları ilə bağlı təsəvvürləri özlərində əks etdirirlər.



“Bayram axşamı”, rəssamı Ülviyyə Həmzəyeva

Ata-babadan qalma adətlərdən biri də qəbir üstünə getmə adətidir. Bayram günündən bir neçə gün qabaq hamı qəbiristanlığa gedir, dünyadan köçən doğmalarını, yaxınlarını ziyarət edərlər. Həmçinin cücərtdikləri səmənidən, bayram çöçəsindən qəbir üstünə aparır, ölənlərinin ruhlarına dualar oxuyurlar.

Xoş arzuları, gözəl istək və diləkləri tərənnüm edən Novruz həm də Kosası, Keçəli, Bahar qızı ilə əlamətdardır. Kosa və Keçəl bayrama xüsusi rəng qatırlar. Kosa və Keçəl obrazları qışla yazın mübarizəsini əks etdirir, gözübağlıca, kəndirbaz oyunlarında Keçəl öz məharətlərini sərgiləyir. Bu obrazlar bayram günlərində insanların üzündə gülüş, səmimiyyət doğurur. Cavanların və uşaqların ən sevdiyi və çox yayılmış oyunlardan biri – “Kosa-kosa” oyunu bayrama xüsusi maraq atır. Cavanlar bir yerə toplaşıb, kosanı hazırlayıb bu mahnını oxuyurlar:



*Ay kosa-kosa, gəlsənə,*
*Gəlib salam versənə,*
*Çömçəni doldursana,*
*Kosanı yola salsana...*

Baharın gəlişini, Novruzu tərənnüm edən xalq mahnılarımız da xeylidir. Hansı ki oxunanda qəlbimizdə sevinc, üzümüzdə gülüş yaranır. Bir mahnıda deyildiyi kimi:

*Bayram gəlir elimə, elimizə,*
*Nəğmə düşür dilimə, dilimizə.*
*Könül gülür, elim gülür,*
*Gülür gözəl diyarım.*
*Çalır tarım, çalır sazım,*
*Gülür, ellər gülür…*

Yurdumuza Novruz bayramı gəlir!.. Arzu edirik ki, gəlişi ilə yalnız gözəl günlər, əmin-amanlıq, xoşbəxtlik, bol ruzi-bərəkət, cansağlığı gətirsin!..

***Bayramınız mübarək olsun!***

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

---

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən cari ilin fevral ayı ərzində torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin gücləndirilməsi, mülkiyyət hüquqlarının dövlət qeydiyyatı zamanı operativliyin təmin edilməsi diqqətdə saxlanılıb, Xidmətin fəaliyyət istiqamətləri üzrə qarşıya qoyulan tapşırıqların icrası davam etdirilib.*

# Dövlət qeydiyyatına alınan daşınmaz əmlak obyektlərinin sayı artıb

Ötən ay “Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na uyğun olaraq Naxçıvan şəhərinin Əliabad qəsəbəsində maarifləndirici tədbir keçirilib, hazırlanan kartoqramlar Naxçıvan və Əliabad bələdiyyələrinə təqdim olunub.



Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafına dəstək məqsədilə əlaqədar Culfa rayonunun Əbrəqunus kəndində ailə təsərrüfatı başçılarının, torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib. Həmçinin Xidmət tərəfindən Babək rayonunda torpaq mülkiyyətçilərinin iştirakı ilə əmlak və torpaq məsələlərinə dair maarifləndirici tədbir təşkil olunub.

Xidmət tərəfindən ötən ay ərzində 857 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 709 texniki sənəd hazırlanıb, ilkin qeydiyyat, bölünmə və birləşmə nəticəsində yeni yaranan 43 daşınmaz əmlak obyektinə ünvan verilib, 97 torpaq sahəsinin plan və ölçüsünə dair dövlət kadastr kitablarında qeyd aparılıb, məhdudiyyət və yüklülüyə dair 474 arayış verilib. Xidmətin fəaliyyət istiqamətləri üzrə təqdim etdiyi elektron xidmətlərə hüquqi və fiziki şəxslər tərəfindən daxil olan 68 müraciət qəbul edilərək icra olunması üçün aidiyyəti üzrə yönəldilib.

Cari ilin fevral ayında kənd təsərrüfatı təyinatlı torpaq sahələri və onların mülkiyyətçiləri haqqında əvvəllər yaranan hüquqlara dair 850 məlumat daşınmaz əmlakın elektron qeydiyyatı sisteminə daxil edilib. 6 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib.

Şərur, Babək, Ordubad, Culfa və Şahbuz rayonlarında vətəndaşlara səyyar xidmət göstərilib, qəbul edilən müraciətlər müvafiq qanunvericiliyin tələblərinə uyğun icra edilib.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

---

# Universitet müəlliminin elmi məqaləsi beynəlxalq nüfuzlu jurnalda dərc olunub

Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru Nəzakət İsmayılovanın “Uşaq ədəbiyyatının yeni metodologiyaya uyğun yazılması günün tələbidir” adlı məqaləsi Braziliyanın “Revista Entre Linguas” jurnalında dərc edilib.




Müəllif məqalədə ədəbi irsi yenilik işığında araşdırıb, müasir milli düşüncə və zamanın tələbinə uyğun olaraq izah edib. Eyni zamanda məqalədə uşaq ədəbiyyatının tədrisi üçün ənənəvi materiallarla yanaşı, bu sahədə ən son elmi nailiyyətlər vurğulanıb, uşaqların hissləri, sevincləri, kədərləri, mənəvi və psixoloji təcrübələrini dolğun əks etdirən əsərlərə ehtiyac olduğu diqqətə çatdırılıb. Tədqiqatda qeyd olunur ki, bu tələblərə uyğun mütəxəssislərin hazırlanması üçün ali məktəblərdə tədris planlarına, proqramlara, dərsliklərə yenidən baxılmalı, onların səviyyəsi istər tədris metodikası, istərsə də elmi cəhətdən müasir tələblər səviyyəsində qurulmalıdır.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***





# Yurdumuza Novruz gəlir, yaz gəlir

Yurdumuza Novruz gəlir, yaz gəlir. Qaranquşların qanadında, yavaş-yavaş qış yuxusundan oyanan torpağın rayihəsində, ağacların, gül-çiçəklərin tumurcuğunda gəlir xalqımızın Novruzu, yurdumuzun baharı. Novruz "təzə il" deməkdir, baharın ilk günüdür. Bütün müsəlmanların həyatında əsl yeni il həmin gündən başlanır. Novruz gəlişi ilə evlərə, ailələrə yeni büsat, şadlıq və sevinc gətirir. Hamı çalışır ki, bu bayramı yüksək təntənə, ürək sevinci, qəlb fərəhi ilə qarşılasın. Hər evdə, hər ailədə Novruz bayramına əvvəlcədən hazırlıq gedir. Analar, bacılar şəkərbura, paxlava, şorqoğal və başqa nemətlər bişirir, bolluq və bərəkət rəmzi olan səməni qoyurlar. El tonqal başına yığışır, küsülülər barışır, qohumlar, dostlar bir-birinin evinə təbrikə gedirlər. Gənc qızlar, oğlanlar məşəl yandırır, tonqal üstündən tullanır, qapılara papaq atır, qulaq falına çıxırlar. Küçədə də, qatarda da, məktəbdə də, idarə və müəssisələrdə də hamının dilində eyni sözlər səslənir: "Bayramınız mübarək!"

Novruz bayramı halallıq, təmizlik bayramıdır. Novruza bir ay qalmış adamlar dörd çərşənbə axşamını qeyd edirlər. Bu çərşənbələrin hər biri insanların yaşaması, bütün həyatın varlığı üçün vacib olan dörd ünsürdən birinə – suya, oda, yelə, torpağa həsr edilir. Bu da Novruzun dünyanın ən qədim, ən müdrik bayramlarından biri olduğunu göstərir. Novruz şənlikləri arasında ilin axır çərşənbəsi çox təntənə ilə qeyd olunur. Bayram zamanı məhəllələrdə, xüsusən də kənd yerlərində uşaqlar və gənclər qapı-qapı gəzib bayram payı toplayır, müxtəlif oyunlar keçirirlər. Novruzun bir bəzəyi də Kosa və Keçəldir. Onlar öz oyunları ilə uşaqlara sevinc gətirir, onları əyləndirirlər.

Bu bayramda dünyadan köçənlər də yad olunur, son illərdə isə Vətən uğrunda canını fəda edənlərin uyuduğu Şəhidlər xiyabanından insan axınının ayağı kəsilmir. Əziz günlərdə heç kəs onları yad etməyi unutmur. Novruz xalqımızın həyata nikbin baxışının, təbiətin və insanlığın qələbəsinə inamının bayramıdır.

Muxtar diyarımızda da Novruz bayramı böyük təmtəraqla qeyd olunur. Elə biz də bu münasibətlə qədim adət-ənənələrimizin ən çox qorunub saxlanıldığı Ordubad rayonuna üz tutduq. İnsanlarla görüşdük, onların bu əziz bayramlarını birlikdə etdik. Rayon sakini ***Nəzakət Kərimova***nın evində qonaq olduq. O bildirdi ki, bu əziz və müqəddəs bayramın əsas atributlarından biri Novruz süfrəsidir. Süfrədə "s" hərfi ilə başlayan yeddi yemək, o cümlədən sumaq, sirkə, süd, səməni, səbzi və sair olmalıdır. Həmçinin Ordubad mətbəxinin inciləri sayılan məcməyi paxlavası, qayğanaq, səməni halvası, bir-birindən ləziz Ordubad yeməkləri süfrələrdə göz oxşayır. Novruz bayramı dedikdə ilk ağıla gələn məhz səmənidir. Lakin səmənilərdən təkcə süfrələrin bəzəyi kimi yox, həm də ləziz təam kimi istifadə edirlər. Səməni halvası bayram süfrələrinin ən dadlı və faydalı qidası kimi ulularımızdan bizə yadigar qalıb. Nəzakət xanımın qonaq etdiyi bu halvadan ağız ləzzəti ilə dadaraq səməni halvasının necə hazırlanmasını soruşdum. Müsahibim bildirdi ki, fevral ayının sonlarında, yəni Boz ay başlayanda buğdanın ən yaxşısı seçilir, tərtəmiz yuyulur. Sonra bir nimçənin üzərinə yayıb üstünə təmiz tənzif çəkərək Günəş hənirtisi dəyən yerə, pəncərələrin qabağına qoyulur. Hər gün tənzifin üzərinə su çiləməklə səməni cücərdilir. Artıq martın əvvəlində buğda çırtıb göyərir. Halva bişirmək üçün də yenicə cücərmiş səmənidən istifadə edirik. Buğdalar çox yaşıllaşmamış onu həvəngdəstədə yaxşıca əzməklə suyu çıxarılır. Tənziflə süzülən həlimi və şirəni qazana tökür, üzərinə soyuq su, buğda unu əlavə edib, bulayaraq un açılır. Şirə bərkiyəndə üzərinə qaynar su töküb, bişənə yaxın qapağı örtüb ocağı söndürülür. Hazır olan qırmızı rəngli şirəyə el arasında səməni horrası deyirlər. Səməni halvası məhz bu horradan hazırlanır. Elə ki səməni horrası hazır oldu, ona un əlavə edilərək xəmir yoğrulur. Xəmirdən hissə-hissə kəsərək teştdə və ya böyük tavada qaynar yağın içinə salınır və tez-tez qarışdırılır. Bulama işini gərək heç dayandırmayasan, yoxsa dibi yanar. Azacıq qazmaq tutan kimi onu çevirib tikələrə parçalamaq lazımdır. Ta ki tamam ovulanadək. Daha sonra qazan odun üzərindən götürülür, ona doşab, istiot, zəncəfil, mixək, razyana, darçın kimi ədvalar vurulub qarışdırılır. Soyuyanda bir də Naxçıvanın dillər əzbəri olan cəviz ləpəsi əlavə edilir. Bayram süfrəsinin dadlı neməti və can dərmanı səməni halvası belə hazırlanır.



Təndir paxlavasının bişirilmə qaydasından söz düşdükdə Nəzakət xanım "Elə, təndir paxlavası bişirməyə hazırlaşırdım. Yaxşısı budur, birlikdə hazırlayaq. Necə deyərlər, "yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır", – dedi. O, 700 qram süd, 700 qram ərinmiş yağ, 10 yumurta götürdü. Südü azca isidib, orta ölçülü bir qaba tökməyi tapşırdı. Yumurtaları da həmin qarışığa əlavə etdi. Qarışığa bir çimdik duz atmaqla onu yaxşıca qarışdırdı. Həmin məhlulun yaxşı qarışdığına əmin olduqdan sonra üzərinə azaz olmaqla un əlavə edib xəmir hazır olana qədər yoğurmağa başladı və bildirdi ki, xəmir çox bərkiməməlidir.

Nəzakət xanımın istəyi ilə böyük ölçüdə mis məcməyi götürüb içərisini ərinmiş yağla yaxşıca yağladım. Dedi ki, bu xəmirin bişərkən yapışmamasına görədir. Başqa bir qabda ət maşınında çəkilmiş 3 kiloqram cəviz içinə 2,5 kiloqram şəkər tozu əlavə edərək söylədi ki, qarışığa zövqə görə döyülmüş hil, ya da keşniş toxumu qatıb qarışdırılır. Hazır xəmiri 12-14 bərabər hissəyə ayırdıq. Onun göstərişi ilə kündələrdən ikisini böyük götürdüm ki, aşağı və yuxarı qatlarda birinci və axırıncı cərgələrə salınsın. Həmin kündələri unlayaraq oxlovla lavaş çörək qalınlığında, məcməyinin ölçüsündə açaraq onun içərisinə sərdik. 11-13 bərabər hissəyə bölünmüş şəkərli cəviz içini hər xəmir qatından bir onun üzərinə səpdik. Sonuncu iki lavaş çörək qalınlığında qatı da hazırlanmış cəviz içi səpilən məcməyiyə saldıq. Nəzakət xanım hazır vəziyyətə gətirilmiş çiy paxlavanı ehmalca dörd hissəyə böldü. Həmin dörd hissə ayrıayrılıqda şaquli istiqamətdə paxlava gülü şəkli alana qədər bölünür. Paxlava hazır olduğu ərəfədə Nəzakət xanımın yoldaşı təndiri 3-4 dərz odunla yandırmışdı. Təndir közə düşərkən həmin odu yarı-yarıya bölüb, közün bir hissəsini təndirdə saxlayıb, o biri hissəsini isə çölə çıxarıb təndirin yanına qoydu. Məcməyini təndirin üstünə qoymamış paxlavanın üzərinə fırça ilə 2 ədəd çalınmış yumurtanın qarışığını çəkdi. Sonra təndirin ağzına görə məcməyini onun üzərinə qoydu. Onu da deyim ki, təndirin ağzı məcməyidən böyük olduğu üçün məcməyini birbaşa təndirin üzərinə deyil, əvvəlcədən təndirin ağzına qoyduğumuz iki ədəd armaturun üzərinə yerləşdirdik. Diqqət etdim ki, Nəzakət xanım təndirin alovunun zəif olmasını, daha doğrusu, közün bir qədər küllənməsini gözdən ötürmürdü. Məcməyinin üzərinə ondan bir qədər böyük məcməyini tərsinə çevirərək kənardakı közü bərabər şəkildə həmin məcməyinin üzərinə yaydı. Beləcə, müsahibim 1 saat ərzində bir neçə dəfə məcməyini yavaşca aralayıb paxlavanın bişib-bişmədiyini müəyyənləşdirməklə məşğul oldu. Dedi ki, paxlavanın həm altı, həm də üstü nə çox qızarmalı, nə də ağ olmalıdır. Paxlava hazır olduqda şirə əlavə edərək doğramağa tələsdiyimi görüb məsləhət bildi ki, kənara qoyub soyutduqdan sonra bunları etsək, daha yaxşı olar. Ev sahibinin göstərişi ilə 1 kiloqram şəkər tozu ilə 1 litr gülab qarışığını odda qaynadıb şirə şəklinə saldım və isti-isti tam soyumuş paxlavanın üzərinə gəzdirdim. 5-6 saat gözləməli olduq ki, paxlava şirəni tam şəkildə canına çəksin.

Nəzakət xanımla paxlavanın soyumasını gözlədiyimiz müddətdə sırf Ordubad kulinariyasına aid digər mətbəx nümunələrimizdən də danışdıq. O dedi ki, Ordubadda bayram qayğanağı süfrələrin bəzəyidir. Belə qayğanaq dünyanın heç bir yerində Ordubaddakı kimi bişirilmir. Bunun üçün 1,5 litr ərinmiş kərə yağını 50 santimetr hündürlüyündə, 30 santimetr diametrdə olan qazana boşaldıb, gur alovlu ocağın üzərinə qoyursan. Yağ tam tüstüləyənə qədər 15 yumurtanı möhkəmcə çalırsan. Yağ tüstülədiyi zaman onun yarısını əlavə qazana boşaldıb, zəif ocağın üzərinə qoyursan ki, yağ soyumasın. Çalınmış yumurtanı ocaqdakı yağın üzərinə boşaldıb, oxlovla ani şəkildə bir dəfə bulayıb geri çəkirsən. İkinci, zəif ocaq üzərində olan yağı həmin qayğanağın üzərinə tökür, 4-5 yerdən oxlovla deşib, bişməsini gözləyirsən. Bundan başqa, qayğanaq tam bişənə yaxın bir qədər yığılır və qazanın içərisində oxlovla toxunduqda yerində fırlanır. Sonra qayğanağı kəfkirlə çevirirsən. Bir qədər gözləyib ocağın altını söndürmək olar. Qayğanağı kəfkirlə götürüb böyük buluda qoyursan. Daha sonra 1 kiloqram şəkər tozu, 4 çay stəkanı su, bir dilim limon, tənzif içinə qoyulmuş sarıçiçəklə birlikdə 10-15 dəqiqə məhlulu qaynadırsan. Hazır şirəni ocaqdan götürənə yaxın 100 qram bal əlavə edib qarışdırırsan və şirəni qaynar vəziyyətdə soyumuş qayğanağın üzərinə əlavə edirsən.

"Hə, paxlava soyuyub, indi doğramaq olar", – deyə ev sahibi masanın üzərindəki iti bıçağı mənə uzadıb, özü isə kənardan gözaltı necə doğrayacağımı müşahidə etməyə başladı. Paxlavanı səliqə ilə doğradıqdan sonra həmsöhbətim dedi ki, paxlavanı ədədədəd və ya iki-bir, üç-bir şirli qazana yığıb ağzını örtüb sərin yerə qoyulmalıdır ki, bir müddət saxlanıla bilsin, xarab olmasın.

Baldan dadlı Ordubad paxlavası ilə ətri ətrafı bürümüş Ordubad limonlu samovar çayını içdikdən sonra "Süfrəniz bol ruzili olsun", – deyib ev sahiblərini qarşıdan gələn əziz Novruz bayramı münasibətilə təbrik edib, paxlava sovqatımı da könül xoşluğu ilə qəbul edib yola düzəldim.

*Əziz oxucular! Səmimi deyim ki, Nəzakət xanımın Novruz bayramı ərəfəsində və ümumilikdə, sırf Ordubada xas olan şirniyyatların hazırlanması barədəki şirin söhbəti bizdə əsl bayram ovqatı yaratdı. Sizə də belə bayram ovqatı arzulayırıq. Arzu edirik ki, süfrələrinizi bəzəyən şirniyyatlar kimi əhvali-ruhiyyəniz xoş, həyatınız şirin olsun!*

**Aytac CƏFƏRLİ**

## Hərbçilərlə növbəti yaddaqalan görüş



Gənclər və İdman Nazirliyi, Əlahiddə Ümumqoşun Ordu və "Gənc Vətənpərvərlər" İctimai Birliyinin birgə təşkilatçılığı ilə muxtar respublikada yerləşən hərbi hissələrdən birində gənclərin zabit və əsgərlərimizlə görüşü keçirilib.

İştirakçılar öncə Vətən uğrunda şəhid olmuş qəhrəmanlarımızın əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər. Sonra Dövlət Himni səsləndirilib. Əlahiddə Ümumqoşun Ordunun zabiti Fariz Sərxanov dövlətimiz tərəfindən ordu quruculuğuna göstərilən diqqət və qayğıdan bəhs edib, hərb sənətinə yiyələnməyin mənəvi-psixoloji üstünlükləri barədə fikirlər səsləndirib. Nazirliyin əməkdaşı Valeh Mahmudov gənclərin iştirakı ilə şəhid ailələrinin ziyarət olunması, Vətən müharibəsi iştirakçıları və hazırda xidməti fəaliyyətini davam etdirən hərbçilərlə keçirilən görüşlərin ənənəyə çevrildiyini diqqətə çatdırıb. Qeyd olunub ki, dövlət-xalq-ordu birliyinin hamılıqla təcəssüm edildiyi Azərbaycanda, eləcə də onun Naxçıvan Muxtar Respublikasında gənc nəslin vətənpərvər ruhda böyüməsi, Azərbaycançılıq ideologiyası və milli dövlətçilik prinsiplərinə sadiq vətəndaş kimi formalaşmasına xüsusi önəm verilir.

Qonaqlar təhlükəsizlik qaydaları barədə təlimatlandırıldıqdan sonra tədbirin proqramına uyğun olaraq hərbi hissə ilə tanışlıq olub, eləcə də qrup təchizatı, silah və texnikaların nümayişi təşkil edilib. Xüsusi təyinatlılar tərəfindən icra olunan əlbəyaxa döyüş, qrupun pusqu və basqın tapşırıqlarını yerinə yetirməsi ilə bağlı təlim-tapşırıqlar gənclər tərəfindən böyük maraqla qarşılanıb. Gənclərdən ibarət yeni formalaşdırılan "Gülən üzlər" Şən və Hazırcavablar Klubu yumoristik səhnəcikləri ilə əsgər və zabitlərimizin üzündə təbəssüm yarada bilib. Tədbir zamanı fərqlənən gənclər fəxri fərmanla təltif ediliblər. Sonra konsert proqramı təşkil olunub. Tədbirin sonunda gənclər hərbçilərlə bərabər nahar ediblər.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Tibbi aksiya keçirilib



Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev İli" tədbirləri çərçivəsində növbəti humanitar tibbi aksiya "Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzi publik hüquqi şəxsin" həkim heyəti tərəfindən Naxçıvan şəhər 14 nömrəli tam orta məktəbdə olub.

Tibbi aksiya zamanı məktəbin 36 qadın işçisi arasında ginekoloji müayinələr aparılıb. Ultrasəs müayinəsindən keçirilən qadınlardan 10 nəfəri müalicə üçün Doğum Mərkəzinə dəvət olunub.

Müayinələr zamanı mərkəzin mütəxəssis ginekoloq həkimləri tərəfindən maarifləndirici söhbətlər aparılıb, ailə planlaşdırılması və qadın sağlamlığı haqqında ətraflı məlumatlar verilib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


**İtmişdir**

Babək rayonu, Kültəpə kənd sakini Şabanov Oruc Cavad oğlunun adına olan JN-028B inventar nömrəli, 10308028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, B.Abbasov küçəsi, döngə 13, ev 2A-da yaşayan Kazımov Adil Musa oğlunun adına olan 4077 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 205